# Azərbaycan və Yaponiya arasında yüksək hüquqi baza mövcuddur



Oktyabrın 27-də Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının üzvləri Milli Məclisdə olublar. Qonaqlarla Milli Məclisin Sədri Oqtay Əsədov görüşüb. Görüşdə Azərbaycan-Yaponiya əlaqələri barədə geniş fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, qarşılıqlı səfərlər ölkələrarası münasibətlərin inkişafında müstəsna rol oynayır. Onun sözlərinə görə, Azərbaycan-Yaponiya əlaqələri ilbəil inkişaf edir. 1998-ci ildə ümummilli lider Heydər Əliyevin və 2006-cı ildə Prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfərlərini xatırladan O.Əsədov qeyd edib ki, bu səfərlərin hər biri iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələ açıb.

Bildirilib ki, indiyədək ölkələrimiz arasında 26 sənəd imzalanıb, 23 sənəd isə imzalanma ərəfəsindədir. Təkcə bu faktın özü ölkələrarası hüquqi və siyasi bazanın yüksək olduğunun göstəricisidir.

Oqtay Əsədov vurğulayıb ki, Azərbaycanın Yaponiya ilə iqtisadi əlaqələrinin 20 ilə yaxın tarixi var. Bu illər ərzində Yaponiya Azərbaycana böyük həcmdə investisiyalar qoyub. Qoyulan hər bir sərmayə isə özünü doğruldub.

Milli Məclisin Sədri yaponiyalı iş adamlarını Azərbaycanın qeyri-neft sektorunda da fəaliyyətə dəvət edib. Bildirib ki, Azərbaycan qeyri-neft sektorunun inkişaf etdirilməsində çox maraqlıdır.

Görüşdə iki ölkə arasındakı əlaqələrin inkişaf etdirilməsində parlamentlərin də böyük rolu olduğu diqqətə çatdırılıb. Qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verilib. Vurğulanıb ki, Yaponiya hökuməti problemin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır.

Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının rəhbəri, Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri Akira Amari qonaqpərvərliyə görə Milli Məclis rəhbərliyinə təşəkkürünü bildirib. O qeyd edib ki, yapon iş adamlarının Azərbaycanın qeyri-neft sektoruna cəlb edilməsi ilə bağlı təklifləri nəzərdən keçirərək Yaponiya hökumətinə məlumat verəcək. Onun sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən Yaponiya şirkətlərinin burada böyük rəğbətlə qarşılanması Yaponiya üçün şərəfdir.

Qonaq Azərbaycanın Dağlıq Qarabağ problemindən xəbərdar olduqlarını vurğulayıb. Onun sözlərinə görə, bu problemin ədalətli həll olunması ümumən Qafqaz regionunda sülhün qorunması üçün çox vacibdir.

Sonda A.Amari qeyd edib ki, bütün gücündən istifadə edərək Azərbaycan-Yaponiya əlaqələrinin daha da inkişaf etməsi üçün çalışacaq.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***